**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ NEFT-QAZ SƏNAYESİNDƏ TİKİNTİNİN DAYANIQLI VƏ DAVAMLI İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri

**İddiaçı: Murad Bəkir oğlu Qasımlı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2026**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Biznesin iqtisadiyyatı və menecment" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Məhəbbət Aşır oğlu Məmmədov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Gülşən Zaid qızı Yüzbaşiyeva**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Qurban Adil oğlu Abbasov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Sədaqət Vəli qızı İbrahimova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: iqtisad elmləri doktoru, professor
**Nazim Müzəffər oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
**Tərbiz Nəsib oğlu Əliyev**

## TƏDQİQAT İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Neft-qaz sənayesi dünya iqtisadiyyatının strateji əhəmiyyətə malik əsas sahələrindən biri olmaqla, enerji təhlükəsizliyinin və iqtisadi inkişafın təmin edilməsində mühüm rol oynayır. Müasir dövrdə dünya enerji balansında aparıcı mövqeyə malik olan neft və qaz sektoru iqtisadi fəaliyyət sahələrinin enerji və xammalla təmin edilməsində əsas mənbə kimi çıxış edir. Bununla yanaşı, neft-qaz sənayesində baş verən texnoloji dəyişikliklər, enerji bazarında qeyri-sabitlik, iqlim dəyişiklikləri və karbon emissiyalarının azaldılması ilə bağlı beynəlxalq tələblər bu sahədə yeni inkişaf yanaşmalarının formalaşdırılmasını zəruri etmişdir.

Beynəlxalq Enerji Agentliyinin məlumatlarına əsasən, dünya üzrə enerji tələbatı artmaqda davam edir və yaxın perspektivdə fosil yanacaqlar enerji mənbəyi kimi öz əhəmiyyətini qoruyub saxlayacaqdır. Eyni zamanda, ətraf mühitin qorunması, ekoloji təhlükəsizlik və yaşıl iqtisadiyyat prinsiplərinin tətbiqi neft-qaz sənayesində fəaliyyət göstərən müəssisələrin strateji fəaliyyət istiqamətlərinə çevrilmişdir. Bu baxımdan təbii ehtiyatlardan səmərəli istifadə və alternativ enerji mənbələrinin inkişaf etdirilməsi davamlı inkişafın əsas şərtlərindən biri hesab olunur.

Neft-qaz sənayesinin inkişafı iqtisadiyyatın digər sahələrinə, xüsusilə tikinti sektoruna birbaşa təsir göstərir. Tikinti sektoru neft və qaz yataqlarının işlənməsi, boru kəmərlərinin çəkilməsi, kommunikasiya xətlərinin və sənaye infrastrukturunun qurulmasında mühüm rol oynayır. Bu sahə iri həcmli investisiya qoyuluşları, yüksək texnoloji imkanlar və ekoloji məsuliyyətlə xarakterizə olunur. Buna görə də tikinti sektorunda dayanıqlı və davamlı inkişafın təmin edilməsi yalnız iqtisadi baxımdan deyil, həm də sosial və ekoloji baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan iqtisadiyyatında neft-qaz sektoru dövlət büdcəsinin formalaşmasında, ixrac potensialının artırılmasında və valyuta gəlirlərinin təmin edilməsində mühüm mövqeyə malikdir. Son illərdə neft qiymətlərində baş verən dəyişikliklər, COVID-19 pandemiyası və qlobal iqtisadi risklər tikinti sektorunun fəaliyyətinə də mənfi təsir göstərmişdir. Nəticədə investisiya aktivliyi zəifləmiş, maliyyə

dayanıqlığı azalmış və məhsul istehsalında geriləmələr müşahidə olunmuşdur. Bu səbəbdən Azərbaycanın neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı və davamlı inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi mühüm elmi-praktiki əhəmiyyət daşıyır.

Mövzu ilə bağlı həm yerli, həm də xarici alimlər tərəfindən müxtəlif istiqamətlərdə tədqiqatlar aparılmışdır. Azərbaycan alimlərindən Məmmədov M.A., Əliyev Ə.B., Xəlilov H.A., Kəlbiyev Y.A., Eyniyev T.T., Rzayev İ.M. və digər tədqiqatçılar iqtisadi inkişaf, dayanıqlıq və tikinti sektorunun problemlərini araşdırmışlar. Xarici alimlərdən isə Pomanova A.İ., Pavlenkov B.A., Stepanova İ., Rekitar Y.A. və başqaları davamlı inkişafın nəzəri-metodoloji əsaslarını, tikinti sektorunda məşğulluğun dayanıqlığını və ekoloji problemləri geniş şəkildə təhlil etmişlər.

Aparılmış araşdırmalar göstərir ki, Azərbaycanın neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı inkişafının təmin olunması, investisiya qoyuluşlarının səmərəliliyinin artırılması, əmək ehtiyatlarından istifadənin təkmilləşdirilməsi və yaşıl texnologiyaların tətbiqi ilə bağlı məsələlər tam kompleks şəkildə araşdırılmamışdır. Xüsusilə tikinti sektorunun iqtisadi artıma təsiri, əlavə dəyərin formalaşması, investisiya axınlarının strukturunun qiymətləndirilməsi və sahənin uzunmüddətli inkişaf potensialı kifayət qədər tədqiq edilməmişdir.

Bütün bunlar göstərir ki, neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı və davamlı inkişaf istiqamətlərinin elmi əsaslarla araşdırılması, mövcud problemlərin qiymətləndirilməsi və onların həlli yollarının müəyyən edilməsi müasir dövrün aktual məsələlərindən biridir. Bu baxımdan dissertasiya işinin mövzusu həm nəzəri, həm də praktiki əhəmiyyətə malik olmaqla, milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsində mühüm rol oynayır.

**Tədqiqatın obyekti** Azərbaycan Respublikasının neft-qaz sənayesində fəaliyyət göstərən tikinti sektoru, bu sektorun inkişafında iştirak edən tikinti müəssisələridir.

**Tədqiqatın predmeti** Azərbaycanın neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı və davamlı inkişafını formalaşdıran iqtisadi mexanizmlər, institusional amillər və idarəetmə alətlərinin məcmusu, istehsal infrastrukturu, əmək ehtiyatları, investisiya

axınları və onların iqtisadi fəaliyyətinin formalaşdırdığı sosial-iqtisadi münasibətlər sistemidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi Azərbaycan Respublikasının neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı və davamlı inkişaf istiqamətlərini müəyyənləşdirmək, mövcud vəziyyətin kompleks təhlili əsasında iqtisadi, sosial və texnoloji amilləri qiymətləndirmək və bu sahədə strateji inkişaf istiqamətləri üzrə elmi əsaslandırılmış təkliflər işləyib hazırlamaqdır. Dissertasiya işində qeyd edilən məqsədin əldə olunması üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi müəyyən edilmişdir:

- Dayanıqlı və davamlı inkişaf anlayışlarının elmi mahiyyətini, prinsiplərini və tikinti sektoruna tətbiq imkanlarını araşdırmaq məqsədi ilə dayanıqlı və davamlı inkişafın nəzəri-metodoloji əsaslarını araşdırmaq;
- Neft-qaz sənayesində tikinti sektorunun qarşısında duran əsas iqtisadi, sosial və ekoloji problemlərin müəyyənləşdirilməsi onun dayanıqlı və davamlı inkişafının əsas xüsusiyyətlərini tədqiq etmək;
- Azərbaycanın neft-qaz sənayesində tikinti sektorunun inkişaf meyillərinin qiymətləndirilməsi üçün müvafiq bazanı formalaşdırmaq onun dayanıqlı inkişaf meyillərinin metodoloji aspektlərini araşdırmaq;
- Ölkənin neft-qaz sənayesində tikinti sektorunun hazırkı vəziyyətini, inkişaf səviyyəsinin investisiya təminatının və orada baş verən struktur dəyişikliklərini kompleks yanaşma metodu əsasında təhlil etmək;
- SOCAR-ın Neftqaztikinti trestinin istehsal-təsərrüfat fəaliyyətini təhlil edib qiymətləndirmək və mövcud potensialı aşkara çıxarmaq, onlardan səmərəli istifadə yollarını müəyyən etmək;
- Neft-qaz sənayesinin tikinti sektorunda əmək ehtiyatlarından istifadəsi və kapital qoyuluşunun səmərəli göstəricilərini təhlil etmək;
- Neft-qaz sənayesində tikinti sektorunun makroiqtisadi göstəricilərə təsirinin ekonometrik qiymətləndirilməsi və modelləşdirilməsi;
- Azərbaycan Respublikasının neft-qaz sənayesində tikintinin dayanıqlı və davamlı inkişafının təmin edilməsi üzrə elmi cəhətdən əsaslandırılmış əməli və metodiki xarakterli təklif və tövsiyələrin

işlənib hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat işində analitik, iqtisadi-statistik, qruplaşdırma, müqayisəli təhlil və sintez, iqtisadi-riyazi modelləşdirmə, (o cümlədən EViews-12 tətbiqi proqram paketləri üzrə ekonometrik modelləşmə), elmi abstraksiya və qrafiki metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**

1. Neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı və davamlı inkişafının təmin edilməsi məsələlərinin nəzəri-metodoloji əsasları və prinsipləri araşdırılmış, iqtisadçı alimlərin ideya və yanaşmaları tədqiq olunaraq, mövzu üzrə elmi nəticələrə münasibət bildirilmiş və müəyyən edilmişdir ki, tikinti sektorunda borc kapitalına tələbat olduqca yüksəkdir. Bu, çox vaxt tədqiqatçıların nəzarətindən kənarda baş verən vəsait dövriyyəsindəki fasilələrlə bağlıdır. Kredit kapitalı bazarı məhsuldar kapitalın yaradılmasına investisiya məqsədilə borc vəsaitlərinin bazar şərtləri ilə cəlb olunaraq icraçı şirkətlərə yönəldilməsi formasında fəaliyyət göstərir.

2. Neft-qaz sənayesində tikinti sektorunun əmək ehtiyatlarından səmərəli istifadə edilməsi yollarını müəyyən etmək üçün ekspert qiymətləndirilməsi, analitik qruplaşdırma və amillər üzrə təhlil kimi kompleks metodlarından yararlanmaq vacibdir.

3. Araşdırmalar göstərmişdir ki, neft-qaz sənayesində tikinti-quraşdırma işlərində əsas kapital yönəldilmiş investisiyalar və məhsul buraxılışının həcmi arasındakı imkanları məhdud olmuşdur. Belə şəraitdə sektora yönəldiləcək investisiyaların bir hissəsinə vergi güzəştlərinin tətbiqi, bank kreditlərinin faiz dərəcələrinin yumşaldılması və dövlət dəstəyinin gücləndirilməsi zəruri hesab olunur.

4. Müəyyən edilmişdir ki, ölkədə tullantıların mühüm hissəsi neft-qaz sənayesində geoloji-kəşfiyyat, quyuların qazılması, hasilat və emal, həmçinin tikinti-quraşdırma işlərinin nəticəsində formalaşır. Bu da sektorun dayanıqlığına mənfi təsir göstərərək davamlı inkişafın ləngiməsinə səbəb olan amillərdən biri kimi çıxış edir. Odur ki, tikinti-quraşdırma işlərinin layihələndirilməsi mərhələsində ekoloji risklərin nəzərə alınması zəruridir. Bu da nəticə etibarilə tullantıların ətraf mühitə vurduğu ziyanın minimuma endirilməsinə imkan yaratmış

olacaqdır.

5. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, neft-qaz sənayesində iş və xidmətlərdə yaranan gəlirin 1% artması ÜDM-in 0,88% artmasına, neft-qaz sektoru üzrə tikinti quraşdırma işlərinə yönəldilmiş investisiyaların 1% artımı ÜDM-in 0,199% artmasına səbəb olur.

6. EViews 12 proqram təminatı vasitəsilə aparılmış ekonometrik təhlil nəticəsində neft sənayesində tikinti üzrə ümumi məhsul buraxılışını izah edən reqressiya modeli qurulmuşdur. Alınan nəticələrə görə, sahədə tikinti üzrə ümumi məhsul buraxılışı 2030-cu ilədək artan dinamika ilə inkişaf edəcəyi gözlənilir. Onun nəticəsində məşğulluğun genişlənməsi, işsizlik səviyyəsinin azalması və əhalinin real və nominal gəlirlərinin yüksəlməsi təmin edilməklə sektorun sosial-iqtisadi təsirinin davamlı xarakter daşıdığına təminat yaradacaqdır.

**Tədqiqatın elmi yeniliyi.**

1. Neft-qaz sənayesində tikinti sektorunun makroiqtisadi təsirinin ekonometrik modeli işlənilmişdir. Bu tikinti sektorunun milli iqtisadi artımın formalaşmasında birbaşa və statistik əhəmiyyətli determinant olduğunu elmi əsaslarla təsdiqləyir və sektorun multiplikativ təsir mexanizmini ortaya qoyur.

2. Aparılmış proqnozlaşdırma modellərinin əsasında müəyyən edilmişdir ki, 2030-cu ilədək tikinti üzrə ümumi məhsul buraxılışı 14,1–14,8 milyard manat intervalında formalaşacaqdır.

3. Sektorun institusional inkişaf xüsusiyyətlərinin təhlili əsasında müəyyən edilmişdir ki, Azərbaycanda tikinti sektoru hələ tam müstəqil və özünü tənzimləyən inkişaf mərhələsinə keçməmişdir. Bu səbəbdən onun dayanıqlı inkişafı üçün sistemli dövlət müdaxiləsi, uzunmüddətli investisiya strategiyaları və vergi stimullaşdırıcı mexanizmlərin tətbiqi elmi cəhətdən zəruri hesab olunur.

4. Tikinti sektorunda əmək ehtiyatlarının idarə olunması metodologiyasının tədqiqi və əmək potensialının qiymətləndirilməsində kompleks yanaşmadan istifadə əsaslandırılmışdır.

5. Neft-qaz sənayesində ekoloji təsirlərin qiymətləndirilməsi zamanı sübut edilmişdir ki, tikinti-quraşdırma fəaliyyəti ekoloji yükün əsas mənbələrindən biridir və onun dayanıqlı inkişafa mənfi təsiri

mövcuddur. Odur ki, tikinti işlərinin ilkin layihələndirmə mərhələsində ekoloji risklərin qiymətləndirilməsi və idarə olunması zəruriliyi elmi cəhətdən əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanın neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı və davamlı inkişafı problemləri kompleks şəkildə araşdırılmış, bu sahədə mövcud nəzəri yanaşmalar sistemləşdirilmiş və yeni metodoloji əsaslandırmalar irəli sürülmüşdür. Araşdırma çərçivəsində dayanıqlı inkişaf anlayışının iqtisadi, sosial və ekoloji aspektləri tikinti sektoruna tətbiq edilmiş, əmək ehtiyatlarının səmərəli istifadəsi, kapital qoyuluşunun struktur göstəriciləri və makroiqtisadi təsirlərin qiymətləndirilməsi üzrə elmi yanaşmalar təkmilləşdirilmişdir. Həmçinin, ekonometrik modelləşdirmə əsasında sektorun iqtisadi artıma təsiri müəyyənləşdirilmiş və bu nəticələr mövcud nəzəri bazanın zənginləşdirilməsinə xidmət etmişdir.

Tədqiqat işinin praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə olunmuş nəticələr və təkliflər Azərbaycanın neft-qaz sənayesində tikinti sektorunun inkişafına yönəldilmiş dövlət proqramlarında, investisiya siyasətində və strateji planlaşdırmada istifadə oluna bilər. Əldə edilmiş proqnoz göstəriciləri sektorda investisiya qərarlarının qəbulunda, əmək bazarının idarə olunmasında, vergi və kredit siyasətinin təkmilləşdirilməsində mühüm əhəmiyyət daşıyır. Bundan başqa, tikinti layihələrinin hazırlanması və icrasında ekoloji risklərin nəzərə alınması ilə bağlı irəli sürülmüş yanaşmalar ətraf mühitin mühafizəsi və "yaşıl inkişaf" strategiyasının həyata keçirilməsinə real dəstək verə bilər.

**Aprobasiyası və tətbiqi.**

Dissertasiya işinin mövzusunu əhatə edən əsas məsələlərlə bağlı 7 elmi məqalə, həmçinin 4 konfrans materialı müəllif tərəfindən yerli və xarici jurnallarda çap edilmişdir. Yerinə yetirilmiş tədqiqat işinin əsas müddəaları və əldə olunmuş nəticələr haqqında Azərbaycan və xarici ölkələrdə keçirilən müxtəlif beynəlxalq və respublika səviyyəli elmi-praktik konfranslarda çıxışlar edilmişdir. Dissertasiya işinin nəticələri 17 noyabr 2022-ci ildə Ukraynada keçirilən VUCA-dünya şərtlərində idarəetmənin və iqtisadiyyatın müasir inkişaf istiqamətləri

mövzusunda Ali təhsil müəssisələri tələbələrinin və gənc alimlərin beynəlxalq elmi-praktik konfransda Azərbaycanda neft və qaz hasilatının tikinti sektorunun davamlı inkişafına təsirinin qiymətləndirilməsi (Assessment of the Impact of Oil and Gas Production on the Sustainable Development of the Construction Sector in Azerbaijan), 2023-cü ilin 17 noyabr tarixində beynəlxalq nəqliyyat-logistika dəhlizi: Zəngilandan inkişaf impulsları mövzusunda keçirilən Beynəlxalq elmi-praktik konfransda Şərqi Zəngəzur nəqliyyat dəhlizinin neft-qaz sənayesi üzrə tikinti sektorunun inkişafında rolu, 23–24 noyabr 2023-cü il tarixində Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş iqtisadiyyatın idarə edilməsinin müasir problemləri və perspektivləri mövzusunda respublika elmi konfransında neft-qaz sənayesi üzrə tikinti sektorunun işğaldan azad olunmuş ərazilərin qurulmasında rolunun qiymətləndirilməsi mövzusunda məruzə edilməklə bərabər konfrans materiallarında dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Biznesin iqtisadiyyatı və menecment" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.**

Dissertasiya işi giriş, 3 fəsil, nəticə, 148 adda istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşdə aparılan təhlil və qiymətləndirmə məqsədilə 18 cədvəl, 39 qrafik və 2 şəkildən istifadə olunmuşdur. Dissertasiya işi girişi 15 559 işarədən, I Fəsil -82 683 işarə, II Fəsil – 72 183 işarə, III Fəsil – 52 973 işarə və nəticə və təkliflər üzrə 9 715 işarədən ibarətdir. İşin ümumi həcmi 166 səhifədən 233 113 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

**GİRİŞ**

**I FƏSİL. DAYANIQLI VƏ DAVAMLI İNKİŞAFIN TƏMİN OLUNMASININ NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI**

1.1. Dayanıqlı və davamlı inkişafın nəzəri-metodoloji əsasları və prinsipləri

1.2. Tikinti sektorunda davamlı inkişafın əsas problemləri və xarakterik xüsusiyyətləri

1.3. Azərbaycanın neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı inkişaf meyillərinin metodoloji aspektləri

**II FƏSİL. AZƏRBAYCANIN NEFT-QAZ SƏNAYESİ ÜZRƏ TİKİNTİ SEKTORUNDA DAYANIQLI VƏ DAVAMLI İNKİŞAFININ TƏMİN OLUNMASININ KOMPLEKS TƏHLİLİ**

2.1. Azərbaycanın neft-qaz sənayesində tikintinin müasir vəziyyətinin təhlili

2.2. SOCAR-ın Neftqaztikinti trestinin istehsal-təsərrüfat fəaliyyətinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi

2.3. Neft-qaz sənayesi üzrə tikintidə əmək ehtiyatlarından istifadə səviyyəsinin və əsaslı vəsait qoyuluşunun struktur göstəricilərinin təhlili

**III FƏSİL. AZƏRBAYCANIN NEFT-QAZ SƏNAYESİNDƏ TİKİNTİ SEKTORUNUN DAYANIQLI VƏ DAVAMLI İNKİŞAFININ PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ**

3.1. Neft-qaz sənayesində tikinti sektorunun makroiqtisadi göstəricilərə təsirinin qiymətləndirilməsi

3.2. Neft-qaz sənayesi üzrə tikinti sektorunun inkişafının qiymətləndirilməsi

3.3. Azərbaycan Respublikasının neft-qaz sənayesində tikintinin dayanıqlı və davamlı inkişafının təkmilləşdirilməsi istiqamətləri

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində tədqiqat mövzusunun elmi və praktiki baxımından aktuallığı əsaslandırılır, öyrənilmə səviyyəsi, işin obyekti və predmeti, məqsəd və qarşıya qoyulan vəzifələr, elmi yeniliyi, dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi təqdim olunur.

Dissertasiya işinin **"Dayanıqlı və davamlı inkişafın təmin olunmasının nəzəri və metodoloji əsasları"** adlanan birinci fəslində dayanıqlı inkişaf anlayışının iqtisadi mahiyyəti, onun formalaşma prinsipləri, sosial-iqtisadi və ekoloji aspektləri, eləcə də neft-qaz sənayesində tikinti sektoruna təsiri geniş şəkildə araşdırılmışdır. Fəsildə müasir dünya iqtisadiyyatında dayanıqlı inkişaf konsepsiyasının aktuallığı, təbii ehtiyatlardan səmərəli istifadə və iqtisadi artım arasında mövcud olan qarşılıqlı əlaqələr sistemli şəkildə təhlil edilmişdir.


Araşdırmalar göstərir ki, davamlı inkişaf iqtisadi, sosial və ekoloji komponentlərin qarşılıqlı tarazlığı əsasında formalaşır. Müasir yanaşmalara əsasən iqtisadi inkişaf yalnız istehsal və gəlirlərin artımı ilə deyil, həm də ətraf mühitin qorunması, resurslardan səmərəli istifadə və gələcək nəsillərin maraqlarının nəzərə alınması ilə qiymətləndirilir. Neft və qaz hasilatı, emalı və nəqli prosesində ətraf mühitə atılan tullantılar ekosistemlərin pozulmasına və iqlim dəyişikliklərinin sürətlənməsinə gətirib çıxarır. Bu səbəbdən neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı və davamlı inkişaf prinsipləri əsasında fəaliyyət göstərməsi mühüm əhəmiyyət kəsb edir. Birinci fəsildə həmçinin dayanıqlı inkişaf konsepsiyasının formalaşma mərhələləri və beynəlxalq səviyyədə qəbul edilmiş əsas prinsipləri təhlil edilmişdir. Göstərilmişdir ki, 1992-ci ildə Rio-de-Janeyroda keçirilən Yer Sammiti davamlı inkişaf ideyasının beynəlxalq səviyyədə qəbul olunmasında mühüm rol oynamışdır. Bu konsepsiyanın əsas məqsədi iqtisadi artımı ekoloji təhlükəsizlik və sosial rifahla uzlaşdırmaqdan ibarətdir.

Dissertasiya işinin bu fəslində dayanıqlı inkişafın metodoloji əsasları sistem yanaşması baxımından qiymətləndirilmiş və müəyyən edilmişdir ki, iqtisadiyyat, cəmiyyət və ətraf mühit qarşılıqlı əlaqədə fəaliyyət göstərən vahid sistemin əsas elementləridir. Sistemin hər hansı bir komponentində baş verən dəyişiklik digər komponentlərə də birbaşa təsir göstərir. Buna görə də iqtisadi qərarların qəbulunda ekoloji və

sosial amillərin nəzərə alınması davamlı inkişafın əsas şərtlərindən biri hesab edilir.

Neft-qaz sektoru ilə dayanıqlı inkişaf arasındakı qarşılıqlı əlaqələr xüsusi olaraq araşdırılmış və müəyyən edilmişdir ki, bu sektor iqtisadiyyatın digər sahələri, xüsusilə tikinti və infrastruktur sahələri ilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Neft-qaz sektorunda formalaşan maliyyə resursları tikinti sektorunun inkişafını stimullaşdırır, yeni iş yerlərinin yaranmasına, infrastruktur layihələrinin genişlənməsinə və regionların sosial-iqtisadi inkişafına şərait yaradır.

Bununla yanaşı, təbii ehtiyatlardan intensiv istifadə həm müsbət iqtisadi nəticələrə, həm də müəyyən ekoloji və sosial problemlərə səbəb olur. Məhz bu baxımdan təbii ehtiyatlar, iqtisadi fəaliyyət sahələri və dayanıqlı inkişaf arasında mövcud olan qarşılıqlı təsirlərin sistemli şəkildə təqdim olunması zərurəti yaranır. Bu əlaqələrin səbəb-nəticə mexanizmini daha aydın göstərmək məqsədilə aşağıda "Təbii resurslar və davamlı inkişaf əlaqəsi" modeli təqdim edilmişdir.




***Sxem. Neft-qaz sektoru və dayanıqlı inkişaf modeli***
***Aparılmış tədqiqatın məntiqi nəticəsi əsasında müəllif tərəfindən tərtib edilmişdir.***

Sxemdə neft-qaz sektorunun iqtisadi sistemə təsir mexanizmi, maliyyə resurslarının formalaşması, tikinti sektorunun inkişafı, məşğulluğun artması və regional inkişafla dayanıqlı iqtisadi sistem


arasındakı qarşılıqlı əlaqə göstərilmişdir. Sxemdə təbii ehtiyatlardan istifadənin iqtisadi artıma təsiri, ekoloji təzyiqlərin yaranması, resursların tükənməsi və alternativ enerji mənbələrinə keçid vasitəsilə davamlı inkişafın təmin olunması ardıcıl şəkildə əks etdirilmişdir.

Qeyd etmək lazımdır ki, resurslardan həddindən artıq istifadə ekoloji risklərin artmasına və təbii ehtiyatların tükənməsinə səbəb olur. Bu baxımdan alternativ enerji mənbələrinin və yaşıl texnologiyaların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Tədqiqatın bu fəslində yaşıl iqtisadiyyat və yaşıl mühasibatlıq anlayışları da geniş təhlil edilmişdir. Müəyyən edilmişdir ki, yaşıl iqtisadiyyat iqtisadi fəaliyyət zamanı karbon emissiyalarının azaldılması, resurslardan səmərəli istifadə və ətraf mühitin qorunmasına əsaslanır. Yaşıl mühasibatlıq isə müəssisələrin fəaliyyətinin yalnız maliyyə nəticələri ilə deyil, həm də ekoloji təsirləri baxımından qiymətləndirilməsinə imkan yaradır.

Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikasında dayanıqlı inkişaf siyasətinin əsas istiqamətlərindən biri iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və işğaldan azad olunmuş ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyasıdır. Bu baxımdan neft-qaz sənayesində tikinti sektoru infrastrukturun yaradılması, sənaye zonalarının inkişafı və məşğulluğun artırılması baxımından mühüm rol oynayır.

Birinci fəsildə aparılmış təhlillər göstərir ki, Azərbaycanın neft-qaz sənayesində tikinti sektorunun inkişafı iqtisadi artımın təmin olunmasında, əsas kapitalın genişlənməsində, yeni iş yerlərinin yaradılmasında və infrastruktur layihələrinin reallaşdırılmasında mühüm rol oynayır. Eyni zamanda bu sektorun fəaliyyəti ekoloji təhlükəsizlik, karbon emissiyası və təbii ehtiyatlardan səmərəli istifadə kimi məsələlərlə sıx bağlıdır. Bu baxımdan dayanıqlı inkişaf prinsiplərinin neft-qaz sənayesində tikinti sektorunda tətbiqi xüsusi aktuallıq kəsb edir.

Aşağıda təqdim olunan qrafikdə Azərbaycan Respublikasında tikinti-quraşdırma işlərinə yönəldilmiş investisiyaların ümumi investisiyalarda payının dinamikası əks etdirilmişdir.




***Qrafik 1. Azərbaycan Respublikasında tikinti-quraşdırma işlərinə yönəldilmiş investisiyaların ümumi həcmdə payı, %-lə***

***Mənbə: https://www.stat.gov.az/source/construction/***[1]

Qrafikə əsasən, 2000–2024-cü illər ərzində tikinti-quraşdırma işlərinə yönəldilən investisiyaların xüsusi çəkisi ümumilikdə artım meyli nümayiş etdirmişdir. Belə ki, 2000-ci illərin əvvəllərində bu göstərici 33–41% intervalında dəyişdiyi halda, sonrakı dövrlərdə neft gəlirlərinin artması və iri infrastruktur layihələrinin həyata keçirilməsi hesabına yüksələrək 2015–2016-cı illərdə 75%-ə yaxın olmuşdur. 2020-ci ildə COVID-19 pandemiyasının təsiri nəticəsində investisiya aktivliyində müəyyən azalma müşahidə edilsə də, sonrakı illərdə, xüsusilə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı tikinti-quraşdırma işlərinin aparılması ilə əlaqədar olaraq göstərici yenidən artmış və 2024-cü ildə 70%-dən yuxarı olmuşdur. Bu dinamika ölkədə tikinti sektorunun iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrildiyini göstərir.

Qrafikə əsasən, tikinti-quraşdırma işlərinə yönəldilən investisiyalar yalnız iqtisadi artımın təmin edilməsinə deyil, həm də regionların sosial-iqtisadi inkişafına, yeni infrastruktur obyektlərinin yaradılmasına və məşğulluq səviyyəsinin yüksəlməsinə mühüm təsir göstərmişdir. Bununla yanaşı, neft-qaz sənayesində aparılan tikinti-quraşdırma işlərinin genişlənməsi ekoloji problemlərin yaranmasına, atmosferə karbon emissiyalarının artmasına və təbii resurslardan intensiv istifadəyə səbəb olmuşdur.


Aparılmış araşdırmalar əsasında belə nəticəyə gəlmək olar ki, neft-

[1] https://www.stat.gov.az/source/construction/

qaz sənayesində tikinti sektorunun inkişafı dayanıqlı və davamlı inkişaf prinsipləri əsasında həyata keçirilməlidir. Bu məqsədlə yaşıl texnologiyaların tətbiqi, ekoloji tullantıların minimuma endirilməsi, enerji səmərəliliyinin artırılması və təbii ehtiyatlardan rasional istifadə mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda tikinti sektorunda investisiya qoyuluşlarının artırılması ilə yanaşı, ekoloji təhlükəsizlik standartlarının tətbiqi iqtisadi inkişafın dayanıqlığının təmin olunmasının əsas şərtlərindən biri kimi çıxış edir.

Dissertasiya işinin **"Azərbaycanın neft-qaz sənayesi üzrə tikinti sektorunda dayanıqlıq və davamlı inkişafının təmin olunmasının kompleks təhlili"** adlanan ikinci fəslində Azərbaycan Respublikasında neft-qaz sənayesində tikinti sektorunun müasir vəziyyəti, onun iqtisadi inkişafda rolu, investisiya fəaliyyətinin dinamikası, məşğulluğa təsiri, ekoloji aspektləri və SOCAR-ın "Neftqaztikinti" trestinin istehsal-təsərrüfat fəaliyyətinin mövcud vəziyyəti kompleks şəkildə təhlil və qiymətləndirilmişdir. Bu fəsildə qeyd olunur ki, Azərbaycanın neft-qaz sənayesi ölkə iqtisadiyyatının aparıcı sahələrindən biri olmaqla yanaşı, tikinti sektorunun inkişafında da mühüm rol oynayır. Neft və qaz yataqlarının işlənməsi, magistral boru kəmərlərinin çəkilməsi, enerji infrastrukturlarının yaradılması və modernləşdirilməsi tikinti sektorunun inkişafını sürətləndirən əsas amillərdən hesab olunur. Bu baxımdan neft-qaz sənayesində tikinti sektoru yalnız istehsal infrastrukturlarının qurulmasını deyil, eyni zamanda logistika, nəqliyyat, xidmət və mühəndislik sistemlərinin formalaşdırılmasını da əhatə edir.

Araşdırmalar göstərmişdir ki, Azərbaycanın neft-qaz tikinti sektoru müstəqillik illərində bir neçə inkişaf mərhələsindən keçmişdir. Xüsusilə 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkəyə böyük həcmdə xarici investisiyaların cəlb edilməsinə şərait yaratmış və neft-qaz sənayesində tikinti-quraşdırma işlərinin həcmini əhəmiyyətli dərəcədə artırmışdır. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi və digər beynəlxalq enerji layihələrinin həyata keçirilməsi nəticəsində yeni magistral boru kəmərləri, kompressor stansiyaları, terminallar və enerji infrastrukturları yaradılmışdır.





***Qrafik 2. Azərbaycanın magistral boru kəməri nəqliyyatının 1995-2023-cü illər üzrə dinamikası***
***Mənbə: https://www.stat.gov.az/source/transport/***[2]

Qrafik 2-nin təhlili göstərir ki, 1995–2024-cü illər ərzində Azərbaycanda magistral boru kəmərlərinin ümumi uzunluğu əsasən artan dinamika ilə inkişaf etmişdir. 1996–1998-ci illərdə magistral boru kəmərlərinin ümumi uzunluğu 3678 km təşkil etdiyi halda, 2008-ci ildə bu göstərici 5836 km-ə, 2011-ci ildə isə 6526 km-ə çatmışdır. Son illərdə isə magistral boru kəmərlərinin uzunluğunda nisbi sabitləşmə müşahidə edilmişdir ki, bu da artıq yeni tikintidən daha çox mövcud infrastrukturun modernləşdirilməsinə üstünlük verilməsi ilə izah edilir.

Bu fəsildə magistral neft və qaz kəmərlərinin iqtisadi əhəmiyyəti ayrıca qiymətləndirilərək müəyyən edilmişdir ki, magistral qaz kəmərlərinin genişləndirilməsi ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində və qaz ixrac potensialının artırılmasında mühüm rol oynayır. Boru kəmərlərinin tikintisi tikinti sektorunda məşğulluğun artmasına, yeni texnologiyaların tətbiqinə və yerli mühəndislik potensialının inkişafına müsbət təsir göstərmişdir.

Tədqiqat nəticələrinə əsasən müəyyən edilmişdir ki, tikinti sektoruna yönəldilən investisiyaların artması əlavə dəyərin ÜDM-də payının yüksəlməsinə mühüm təsir göstərmişdir. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.

[2] https://www.stat.gov.az/source/transport/




***Qrafik 3. Tikinti-quraşdırma işləri üzrə əlavə dəyərin ÜDM-də payı,%-lə***
***Mənbə: https://www.stat.gov.az/source/construction/***[3]

Qrafikdən göründüyü kimi, tikinti-quraşdırma işləri üzrə əlavə dəyərin ÜDM-də payı 2004-cü ildə 12,45%, 2014-cü ildə isə 12,6% olmuşdur. Sonrakı dövrlərdə qlobal maliyyə böhranları, neft qiymətlərinin azalması və COVID-19 pandemiyası ilə əlaqədar müəyyən azalma müşahidə edilsə də, 2023–2024-cü illərdə yenidən artım meyli formalaşmışdır.


Bu fəsildə tikinti sektorunun məşğulluğa təsiri də geniş şəkildə araşdırılaraq müəyyən edilmişdir ki, tikinti sektoru iqtisadi fəaliyyət sahələri arasında məşğulluğun təmin edilməsində aparıcı sahələrdən biridir. Tikinti sektorunda çalışan işçilərin sayı və onların ümumi məşğulluqda payı son illərdə artmışdır. 2024-cü ildə tikinti sektorunda çalışanların ümumi məşğulluqda payı 8%-ə çatmışdır. Bu isə tikinti sektorunun sosial-iqtisadi inkişaf baxımından mühüm rol oynadığını göstərir.

İkinci fəslin mühüm istiqamətlərindən biri də SOCAR-ın "Neftqaztikinti" trestinin istehsal-təsərrüfat fəaliyyətinin təhlili olmuşdur. Aparılan maliyyə-iqtisadi təhlillər göstərmişdir ki, trestin gəlirlərinin əsas hissəsi iş və xidmətlərin yerinə yetirilməsindən formalaşır. 2015–2019-cu illərdə müəssisənin ümumi gəlirləri və mənfəəti artan dinamika ilə inkişaf etmiş, 2020-ci ildə pandemiyanın təsiri nəticəsində müəyyən azalma və zərər müşahidə edilmişdir. Sonrakı illərdə isə iqtisadi aktivliyin bərpası nəticəsində müəssisənin

[3] https://www.stat.gov.az/source/construction/

maliyyə göstəricilərində yenidən müsbət dinamika formalaşmışdır. Aparılan təhlillər göstərir ki, SOCAR-ın "Neftqaztikinti" trestinin fəaliyyətində əməkhaqqı, xammal-material və nəqliyyat xərcləri əsas paya malikdir. Eyni zamanda müəssisənin fəaliyyətində rəqəmsal texnologiyaların, avtomatlaşdırılmış idarəetmə sistemlərinin və ekoloji texnologiyaların tətbiqi genişləndirilmişdir. Bu isə istehsal proseslərinin səmərəliliyinin yüksəldilməsinə və təhlükəsizlik standartlarının gücləndirilməsinə şərait yaratmışdır.

Müəssisənin maliyyə göstəricilərində müşahidə olunan dəyişikliklərin gələcək inkişaf meyllərinin müəyyən edilməsi məqsədilə iqtisadi-riyazi yanaşmalar əsasında proqnoz təhlili aparılmışdır. Aparılan hesablamalar nəticəsində "Neftqaztikinti" trestinin mənfəət göstəricilərinin 2030-cu ilədək inkişaf dinamikası qiymətləndirilmiş və müxtəlif ssenarilər üzrə proqnoz nəticələri hazırlanmışdır. Bu məqsədlə aşağıdakı qrafikdə müəssisənin mənfəət göstəricilərinin proqnoz dinamikası təqdim edilmişdir.





***Qrafik 4. Neftqaztikinti trestinin mənfəətinin 2030-cu ilədək proqnozu***
***Mənbə: Proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.***

Qrafikdən göründüyü kimi Neftqaztikinti trestinin mənfəətinin 2030-cu ilədək proqnoz qiymətləri əvvəlki ilə nisbətən 2030-ci ilədək azalan dinamika ilə inkişaf edərək 2030-cu ildə 5,51 milyon manata çatacağı gözlənilə bilər. Bu azalma ilkin növbədə Neftqaztikinti trestinin mənfəətinin, istehsal xərclərində dolayı xərclərin artması ilə yanaşı, həmin xərclərdə innovasiya yönümlü azalan dinamika ilə inkişaf etməsi ilə izah edilir. Bu baxımdan növbəti illərdə innovativ inkişaf xərclərinin artırılması, istehsal xərclərində qeyri-məhsuldar

xərclərin optimallaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Aparılmış təhlillər göstərir ki, Azərbaycan Respublikasında investisiya qoyuluşlarının əsas hissəsi uzun illər ərzində neft və qaz sektoruna yönəldilmişdir. Bu isə ilk növbədə ölkə iqtisadiyyatının əsasını təşkil edən neft-qaz sənayesinin yüksək investisiya cəlbediciliyinə malik olması ilə əlaqədardır. Neft-qaz sektorunda həyata keçirilən iri həcmli investisiya layihələri tikinti sektorunun inkişafına, yeni istehsal və infrastruktur obyektlərinin yaradılmasına, tikinti-quraşdırma işlərinin həcminin genişlənməsinə və əsas kapitalın artmasına mühüm təsir göstərmişdir.

Müəyyən edilmişdir ki, neft-qaz sənayesində əsas kapitala yönəldilən investisiyaların artması tikinti sektorunun dayanıqlı inkişafını stimullaşdırmış, tikinti-quraşdırma işlərinin dəyərinin yüksəlməsini şərtləndirmişdir. Bu baxımdan investisiya qoyuluşları ilə tikinti-quraşdırma işlərinin dəyəri arasındakı qarşılıqlı əlaqələrin ekonometrik qiymətləndirilməsi mühüm elmi və praktiki əhəmiyyət kəsb edir. Aşağıdakı qrafikdə Azərbaycanda tikinti-quraşdırma işlərinə sərf edilən investisiya qoyuluşu ilə tikinti işlərinin dəyəri arasındakı asılılıq verilmişdir.





***Qrafik 5. Azərbaycanda tikinti-quraşdırma işlərinə sərf edilən investisiya qoyuluşu ilə tikinti işlərin dəyəri arasındakı asılılıq***
***Mənbə. ARDSK-nin məlumatları əsasında Ms Exceldə tərtib edilmişdir.***[4]

[4] ARDSK-nin məlumatları əsasında Ms Exceldə tərtib edilmişdir.

Qrafikin təhlili göstərir ki, hər iki göstərici arasında olduqca yüksək səviyyəli korrelyasiya əlaqəsi mövcuddur və bu əlaqə y = 0,7688x – 324,29 xətti reqressiya tənliyi ilə ifadə olunur. Aparılmış hesablamalara əsasən elastiklik əmsalı E = 1,05 olmuşdur. Bu isə onu göstərir ki, tikinti-quraşdırma işlərinə yönəldilən investisiya qoyuluşlarının 1% artması tikinti işlərinin dəyərinin orta hesabla 1,05% artmasına səbəb olur. Nəticə etibarilə investisiya qoyuluşlarının genişlənməsi tikinti sektorunda iqtisadi aktivliyin və istehsal həcminin yüksəlməsinə birbaşa təsir göstərir.

Tədqiqat işində MS Excel proqram paketindən istifadə etməklə Azərbaycan Respublikasının neft və qaz sektorunda əsas kapital qoyuluşu ilə tikinti-quraşdırma işlərinin dəyəri arasındakı qarşılıqlı əlaqə də ayrıca qiymətləndirilmişdir. Bu məqsədlə aparılmış ekonometrik təhlilin nəticələri aşağıdakı qrafikdə təqdim olunmuşdur.




***Qrafik 6. Azərbaycanın neft və qaz sənayesində tikinti üzrə əsas kapital qoyuluşu ilə tikinti-quraşdırma işlərinin dəyəri arasındakı asılılıq***
***Mənbə. ARDSK-nin məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilib[5].***

Qrafikin təhlili göstərir ki, Azərbaycanda neft-qaz sektoru üzrə tikinti-quraşdırma işlərinə yönəldilmiş investisiyalarla bu sektordan əldə olunan gəlir arasında y = 0,652x – 111,32 xətti reqressiya tənliyi ilə ifadə olunan yüksək korrelyasiya əlaqəsi mövcuddur.

Aparılmış hesablamalar əsasında elastiklik əmsalı E = 1,164

[5] ARDSK-nin məlumatlarına əsasən müəllif tərəfindən tərtib

olmuşdur. Bu isə onu göstərir ki, neft-qaz sektoru üzrə tikintidə əsas kapitala yönəldilən investisiyaların 1% artması həmin sektor üzrə gəlirin orta hesabla 1,16% artmasına səbəb olur. Aparılmış ekonometrik təhlillər təsdiq edir ki, investisiya qoyuluşlarının artması neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı inkişafına, gəlirliliyin yüksəlməsinə və iqtisadi səmərəliliyin artırılmasına mühüm təsir göstərir.

Beləliklə, ikinci fəsildə aparılan kompleks təhlillər nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanın neft-qaz sənayesində tikinti sektoru ölkənin iqtisadi inkişafında, enerji təhlükəsizliyinin təmin edilməsində, məşğulluğun artırılmasında və infrastrukturun modernləşdirilməsində mühüm strateji əhəmiyyətə malikdir. Eyni zamanda bu sektorun gələcək inkişafı innovativ texnologiyaların tətbiqi, ekoloji təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, investisiya fəaliyyətinin genişləndirilməsi və qeyri-neft sektorunun inkişafı ilə sıx bağlıdır. Aparılmış araşdırmalar göstərir ki, dayanıqlı və davamlı inkişaf prinsiplərinə əsaslanan investisiya siyasəti neft-qaz sənayesində tikinti sektorunun uzunmüddətli inkişafının təmin olunmasında mühüm rol oynayacaqdır.

Dissertasiya işinin **"Azərbaycan Respublikasının neft-qaz sənayesində tikintinin dayanıqlı və davamlı inkişafının təkmilləşdirilməsi istiqamətləri"** adlanan üçüncü fəslində neft-qaz sənayesində tikinti sektorunun makroiqtisadi göstəricilərə təsiri, bu sahənin müstəqil inkişaf etmə potensialı, investisiya fəallığının qiymətləndirilməsi, məşğulluğa və ÜDM-ə təsiri, eləcə də sektorun perspektiv inkişaf istiqamətləri kompleks şəkildə təhlil edilmişdir. Fəsildə qeyd olunur ki, Azərbaycan Respublikasında neft-qaz sənayesinin inkişafı ölkəyə cəlb olunan investisiyaların artmasına, tikinti sektorunun genişlənməsinə və iqtisadiyyatın digər sahələrinin inkişafına mühüm təsir göstərmişdir. Xüsusilə "Əsrin müqaviləsi" ndən sonra neft-qaz sektoruna yönəldilən xarici investisiyalar tikinti-quraşdırma işlərinin həcmini artıraraq yeni infrastruktur layihələrinin həyata keçirilməsinə şərait yaratmışdır. Tədqiqat zamanı müəyyən edilmişdir ki, neft-qaz sektorunda tikinti-quraşdırma işlərinə yönəldilən investisiya qoyuluşları bu sahədə iş və xidmətlərdən əldə olunan gəlirin artmasına birbaşa təsir göstərir. Bu baxımdan investisiya qoyuluşu ilə

tikinti işlərinin dəyəri, eləcə də ÜDM arasındakı qarşılıqlı əlaqələrin ekonometrik qiymətləndirilməsi aparılmışdır. Təhlillər göstərmişdir ki, neft-qaz və qeyri-neft-qaz sektoru üzrə tikintiyə yönəldilən investisiyalarla ÜDM arasında yüksək səviyyəli korrelyasiya əlaqəsi mövcuddur. EViews-12 proqram paketində aparılmış reqressiya analizinə əsasən ÜDM ilə neft-qaz sektoru üzrə tikinti investisiyaları, qeyri-neft-qaz sektoru üzrə investisiyalar və neft-qaz sektorundan əldə olunan gəlirlər arasında statistik cəhətdən əhəmiyyətli əlaqə müəyyən edilmişdir.

**Cədvəl. Azərbaycan Respublikasında ÜDM-lə neft-qaz sektorunda tikinti işləri üzrə ümumi məhsul buraxılışı arasındakı asılılığın reqressiya analizi**

| | | | | |
|---|---|---|---|---|
| Asılı dəyişən: GDP (ÜDM) | | | | |
| Metod: ən kiçik kvadratlar | | | | |
| Tarix: 28.10.2024 Saat: 11:23 | | | | |
| Seçmə dövrü: 2000–2023 | | | | |
| Müşahidələrin sayı: 24 | | | | |
| Dəyişən | Əmsal | Standart xəta | t-Statistic | Prob. |
| AVPT | 8.968979 | 0.651633 | 13.76385 | 0.0000 |
| C | -813.2381 | 4432.565 | -0.183469 | 0.8561 |
| Determinasiya əmsalı ($R^2$) | 0.895953 | Asılı dəyişənin orta qiyməti | | 50146.60 |
| Düzəliş edilmiş $R^2$ | 0.891224 | Asılı dəyişənin standart kənarlaşması | | 36200.67 |
| Reqressiyanın standart xətası | 11939.42 | Akaike informasiya meya | | 21.69273 |
| Qalıqların kvadratları cəmi | 3.14E+09 | Şvars meyarı | | 21.79090 |
| Loqarifmik inandırıcılıq | -258.3128 | Hannan–Kuinn meyarı | | 21.71878 |
| F-statistika | 189.4437 | Darbin–Uotson statistikas | | 1.186874 |
| F-statistikanın ehtimalı | 0.000000 | | | |


***Mənbə. EViews 12.***

Yuxarıdakı cədvələ görə EViews 12 tətbiqi proqram paketinə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

GDP = 8.96897921309*AVPT - 813.238147371
(t) (13,76) (-0,183) DW=1,187

Modelə əsasən belə nəticəyə gəlmək olar ki, tədqiq olunan dövr üzrə Azərbaycan Respublikasında neft-qaz sənayesində tikinti üzrə ümumi məhsul buraxılışının həcminin ifadə edən AVP amilinin bir vahid artması, Azərbaycanda ÜDM-in 8,97 vahid artmasına səbəb olmuşdur.

Üçüncü fəsildə neft-qaz sənayesində tikinti sektorunun müstəqil inkişaf etmə potensialı da ayrıca qiymətləndirilmişdir. Bu məqsədlə akselerator modeli tətbiq edilmiş və əsas kapitala yönəldilən investisiyaların dəyişmə dinamikasının məhsul buraxılışının artımından asılılığı təhlil olunmuşdur. Hesablamalar nəticəsində akselerasiya əmsalı $\alpha_1$=0,397 olmuşdur ki, bu da müsbət, lakin vahiddən kiçik qiymət almışdır. Bu nəticə göstərir ki, məhsul istehsalında baş verən artım investisiyalara müsbət təsir göstərsə də, həmin təsir tam proporsional xarakter daşımır və investisiya fəallığı zəif intensivliklə formalaşır. Müəyyən edilmişdir ki, SOCAR-ın tikinti sektorunda fəaliyyət göstərən müəssisələri əldə etdikləri gəlirin yalnız müəyyən hissəsini əsas kapitalın genişləndirilməsinə yönəldirlər. Bu isə investisiya qərarlarının ehtiyatlı xarakter daşıdığını, maliyyə resurslarına çıxış imkanlarının məhdud olduğunu və sektor üzrə daxili investisiya potensialının tam formalaşmadığını göstərir. Bu fəsildə tikinti sektorunun məşğulluğa və sosial-iqtisadi göstəricilərə təsiri də geniş şəkildə araşdırılmışdır. Təhlillər göstərmişdir ki, tikinti sektoru əmək tutumlu sahə olmaqla əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Tikinti üzrə ümumi məhsul buraxılışı ilə məşğulluq arasında yüksək korrelyasiya əlaqəsi müəyyən edilmiş və elastiklik əmsalının nəticələrinə əsasən tikinti üzrə məhsul buraxılışının 1% artmasının məşğulluğun orta hesabla 0,284% artmasına səbəb olduğu müəyyən olunmuşdur. Bu isə sektorun sosial-iqtisadi əhəmiyyətini bir daha təsdiq edir. Tədqiqat işində modelin proqnoz xarakeristikaları müəyyən edilərək aşağıdakı qrafikdə göstərilmişdir.




Proqnoz: ÜDMF
Faktiki: ÜDM
Proqnoz dövrü: 2000–2023
Müşahidələrin sayı: 24

| | |
|---|---|
| Orta kvadratik xəta | 11431.12 |
| Orta mütləq xəta | 7508.002 |
| Orta mütləq faiz xətası | 18.75604 |
| Teyl bərabərsizlik əmsalı | 0.093901 |
| Qərəz payı | 0.000000 |
| Dispersiya payı | 0.027460 |
| Kovariasiya payı | 0.972540 |
| Teyl U2 əmsalı | 1.026890 |
| Simmetrik orta mütləq faiz xətası (SMAPE) | 20.65237 |

***Qrafik 7. ÜDM-in illər üzrə qiymətləri və standart səhvləri, proqnoz üçün xarakteristikaları.***
***Mənbə: EViews 12.***

Qrafikdən göründüyü kimi modelin proqnoz xarakteristikaları Azərbaycan Respublikasında ÜDM-in proqnoz qiymətlərini hesablamaq üçün istifadə edilə bilər. Aparılmış proqnoz təhlilləri nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda tikinti üzrə ümumi məhsul buraxılışı və əsas kapitala yönəldilən investisiyalar 2030-cu ilədək artan dinamika ilə inkişaf edəcəkdir. MS Excel proqramında qurulmuş trend modellərinə əsasən tikinti üzrə ümumi məhsul buraxılışının 2030-cu ildə təxminən 14,8 milyard manat, neft-qaz sektorunda tikintiyə yönəldilən investisiyaların isə 7394,8 milyon manat olacağı proqnozlaşdırılmışdır. Bu dinamika tikinti sektorunun gələcəkdə də iqtisadi artımın aparıcı sahələrindən biri olaraq qalacağını göstərir. Üçüncü fəsildə tikinti sektorunun ÜDM-lə qarşılıqlı əlaqəsi də ekonometrik üsullarla qiymətləndirilmişdir. EViews-12 proqram paketində aparılmış reqressiya təhlili nəticəsində tikinti işləri üzrə ümumi məhsul buraxılışı və əlavə dəyərlə ÜDM arasında yüksək səviyyəli korrelyasiya əlaqəsi müəyyən edilmişdir ($R^2$=0,919). Müəyyən edilmişdir ki, tikinti üzrə ümumi məhsul buraxılışı və əlavə dəyərin artması ÜDM-in həcminin yüksəlməsinə əhəmiyyətli təsir göstərir. Eyni zamanda modeldə multikolinearlıq problemləri

qiymətləndirilmiş və izahedici dəyişənlərin statistik uyğunluğu təhlil edilmişdir.

Beləliklə, üçüncü fəsildə aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanın neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı və davamlı inkişafı investisiya fəallığının artırılması, innovativ texnologiyaların tətbiqi, dövlət dəstəyinin gücləndirilməsi və iqtisadiyyatın diversifikasiyası ilə sıx bağlıdır. Aparılmış ekonometrik modellər və proqnoz nəticələri göstərir ki, tikinti sektorunun inkişafı ölkədə iqtisadi artımın, məşğulluğun və sosial rifahın yüksəldilməsində mühüm strateji əhəmiyyətə malikdir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Aparılan tədqiqat nəticəsində aşağıdakı nəticələr müəyyən edilmişdir:

1. Aparılmış tədqiqat işinin nəticələri göstərir ki, Azərbaycan Respublikasında neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı və davamlı inkişafı ölkənin iqtisadi artımının, enerji təhlükəsizliyinin, məşğulluğun və sosial rifahın təmin edilməsində mühüm strateji əhəmiyyətə malikdir.

2. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, dayanıqlı və davamlı inkişaf iqtisadi, sosial və ekoloji komponentlərin qarşılıqlı əlaqəsi əsasında formalaşan kompleks sistem olmaqla, bu komponentlər arasında tarazlığın təmin olunması uzunmüddətli inkişafın əsas şərtidir.

3. Müəyyən olunmuşdur ki, təbii ehtiyatlardan asılı iqtisadiyyatlarda, xüsusilə neft-qaz sektorunun üstünlük təşkil etdiyi ölkələrdə iqtisadi artım ilə ekoloji risklər arasında birbaşa əlaqə mövcuddur. Bu isə resurslardan səmərəsiz istifadə şəraitində dayanıqlığın zəifləməsinə səbəb olur.

4. Araşdırmalar göstərmişdir ki, iqtisadi artımın davamlılığı yalnız resurs bolluğu ilə deyil, həm də həmin resursların idarə olunma səviyyəsi, innovativ texnologiyaların tətbiqi və institusional mexanizmlərin effektivliyi ilə müəyyən edilir.

5. Dissertasiya işində müəyyən edilmişdir ki, neft-qaz sənayesi ilə tikinti sektoru arasında qarşılıqlı əlaqə iqtisadi sistemdə multiplikativ təsir yaradaraq məşğulluğun artmasına, regional inkişafın sürətlənməsinə və sosial rifahın yüksəlməsinə mühüm təsir göstərir.

6. Tədqiqat işində müəyyən edilmişdir ki, iqtisadiyyatın müasir mərhələsində yaşıl iqtisadiyyat və ekoloji məsuliyyət prinsiplərinin tətbiqi davamlı inkişafın əsas istiqamətlərindən biri kimi çıxış edir və iqtisadi fəaliyyətin ətraf mühitə mənfi təsirlərinin minimuma endirilməsini zəruri edir. Eyni zamanda müəyyən olunmuşdur ki, tikinti fəaliyyətlərinin genişlənməsi ilə əlaqədar olaraq ekoloji tullantıların həcmi artmış, atmosfer, torpaq və su ehtiyatlarının çirklənməsi güclənmişdir. Bu isə iqtisadi artımla ekoloji təhlükəsizlik arasında balansın tam təmin olunmadığını göstərir.

7. Aparılmış təhlillər nəticəsində müəyyən edilmişdir ki,

Azərbaycanda neft-qaz sənayesində tikinti sektorunun inkişafı əsasən investisiya qoyuluşlarının artımı ilə şərtlənir. Xüsusilə əsas kapitala yönəldilmiş investisiyaların və tikinti-quraşdırma işlərinin həcminin artması sektorun ÜDM-də payının yüksəlməsinə və iqtisadi artıma mühüm töhfə vermişdir.

8. Tikinti sektorunun inkişaf dinamikası uzunmüddətli artım meyli ilə xarakterizə olunsa da, sektor qlobal iqtisadi şoklara, xüsusilə COVID-19 pandemiyasına qarşı yüksək həssaslıq nümayiş etdirmişdir. Bu isə sektorun dayanıqlı inkişafının təmin edilməsində risk faktorlarının mövcud olduğunu təsdiq edir.

9. Tədqiqat zamanı müəyyən edilmişdir ki, tikinti sektoru məşğulluğun təmin olunmasında mühüm rol oynasa da, qeyri-formal məşğulluq, əmək təhlükəsizliyi problemləri və iş yerlərinin qeyri-sabitliyi kimi amillər sosial komponentin zəif tərəflərini təşkil edir.

10. Aparılmış ekonometrik təhlillər göstərmişdir ki, tikinti üzrə ümumi məhsul buraxılışı ilə məşğulluq arasında müsbət və statistik əhəmiyyətli əlaqə mövcuddur. Hesablamalara əsasən tikinti sektorunda istehsalın 1% artması məşğulluğun orta hesabla 0,284% artmasına səbəb olur ki, bu da sektorun sosial-iqtisadi sabitlik baxımından mühüm rol oynadığını təsdiq edir.

11. Dissertasiya işində qurulmuş ekonometrik modellər nəticəsində müəyyən edilmişdir ki, neft-qaz sənayesində tikinti üzrə ümumi məhsul buraxılışı ilə ÜDM arasında yüksək korrelyasiya əlaqəsi mövcuddur ($R^2$=0,895–0,919).

**Tədqiqatın nəticələrindən irəli gələn əsas təkliflər**

– qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın diversifikasiyası istiqamətində dövlət proqramları genişləndirilməli, qeyri-neft sektoruna yönəldilən investisiyalar artırılmalıdır;

– neft-qaz sənayesində tikinti layihələrinə innovativ və rəqəmsal texnologiyaların tətbiqi genişləndirilməli, istehsal proseslərinin avtomatlaşdırılması və rəqəmsallaşdırılması sürətləndirilməlidir;

– "yaşıl iqtisadiyyat" prinsipləri və ekoloji təhlükəsizlik standartları tikinti və infrastruktur layihələrinin əsas tərkib hissəsinə çevrilməli, yaşıl tikinti standartlarının tətbiqi genişləndirilməlidir;

– tikinti sektorunda investisiya fəallığının artırılması məqsədilə

vergi güzəştləri, amortizasiya mexanizmləri və dövlət maliyyə dəstəyi proqramları təkmilləşdirilməlidir;

– əsas kapitalın yenilənməsi və modernləşdirilməsi üçün güzəştli kredit mexanizmləri genişləndirilməli, dövlət-özəl tərəfdaşlığı layihələrinin həcmi artırılmalıdır;

– tikinti sektorunda ixtisaslı kadr hazırlığı gücləndirilməli, təhsil sektoru ilə istehsalat arasında inteqrasiya genişləndirilməli və əmək bazarının tələblərinə uyğun müasir peşə hazırlığı sistemi formalaşdırılmalıdır;

– qeyri-formal məşğulluğun azaldılması, əmək təhlükəsizliyi standartlarının gücləndirilməsi və sosial müdafiə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində institusional tədbirlər həyata keçirilməlidir;

– investisiya qərarlarının səmərəliliyinin artırılması üçün risklərin idarə olunması və iqtisadi proqnozlaşdırma mexanizmləri daha da təkmilləşdirilməlidir;

– tikinti sektorunda institusional və normativ-hüquqi baza beynəlxalq standartlara uyğunlaşdırılmalı və idarəetmə mexanizmlərinin effektivliyi yüksəldilməlidir.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Qasımlı, M.B. Azərbaycan Respublikasının neft-qaz sənayesində tikinti sektorunun dayanıqlı inkişaf meyilləri // Tikintinin iqtisadiyyatı və menecment, Bakı. 2021. – № 4 (17). s. 339–344.

2. Qasımlı, M.B. Neft-qaz hasilatı və istehsalının neft sektorunda tikinti-quraşdırma işlərinə təsirinin qiymətləndirilməsi // Bakı. Tikintinin iqtisadiyyatı və menecment, Bakı. 2022. – № 4 (21). s. 129–136.

3. Yusifov, E.M., Qasımlı, M.B. Sənaye müəssisələrinin idarə edilməsinin səmərəliliyinin yüksəldilməsində proses yanaşması və rəqəmsal texnologiyaların tətbiqi imkanları // Akademik Z. Səmədzadənin 80 illik yubileyinə həsr olunmuş "Dayanıqlı inkişafın yeni keyfiyyət mərhələsi" beynəlxalq elmi konfrans, Bakı. 2022. s. 444–450.

4. Gasimli, M.B. Influence of the construction sector on the gross domestic product of the oil and gas industry // Economics and Region, Odessa.2022. – № 3 (86). p. 24–31.

5. Məmmədov, M.A., Qasımlı, M.B. Neft-qaz sənayesinin dayanıqlı inkişafında ekoloji problemlər //"İqtisadi İslahatlar" elmi-analitik jurnal, Bakı. 2023. № 1 (6) səh. 15–21

6. Qasımlı, M.B. SOCAR-ın "Neftqaztikinti" trestinin dayanıqlı inkişafı üzrə risk amilinin qiymətləndirilməsi// ENECO jurnalı, Tallin. 2023. Cild 14, Buraxılış 2.səh. 17-24.

7. Gasimli, M.B. Assessment of the impact of oil and gas production on the sustainable development of the construction sector in Azerbaijan / M.B.Gasimli // Сучасні напрямки розвитку менеджменту та економіки в умовах VUCA-світу : зб. матеріалів міжнар. наук.-практ. конф. здобувачів вищ. освіти і молодих вчених, 17 листоп. 2022 р. / Харків. нац. автомоб.-дор. ун-т. – Харків, 2022. с. 366–369.

8. Qasımlı, M.B. Neft-qaz sənayesi üzrə tikinti sektorunun işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iqtisadi potensialının qiymətləndirilməsi // Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Dövlətlərarası iqtisadi əlaqələr: müasir çağırışlar və perspektivlər" Beynəlxalq elmi konfransın

materialları. – Sumqayıt, 25–26 may 2023. – s. 318–320.

9. Qasımlı, M.B. İşğaldan azad edilmiş ərazilərin bərpasının Azərbaycanda neft-qaz sənayesi üzrə tikinti sektorunun yüksəlişinə təsiri // "İşğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası: hədəflər və istiqamətlər" mövzusunda beynəlxalq elmi konfrans, Bakı, 13–14 iyun 2023. – s. 306–314.

10. Qasımlı, M.B. Neft-qaz sənayesinin dayanıqlı inkişafına təsir edən amillər // İqtisadi islahatlar. – Bakı, 2023. – № 4 (9). – s. 89–102.

11. Məmmədov, M.A., Qasımlı, M.B., Şərqi Zəngəzur nəqliyyat dəhlizinin neft-qaz sənayesi üzrə tikinti sektorunun inkişafında rolu // Tikintinin iqtisadiyyatı və menecment. – Bakı, 2024. – № 1 (26). – s. 17–20.



Dissertasiyanın müdafiəsi “04” dekabr 2026-cı il tarixində saat $11^{00}$-da Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1143, Bakı şəh., H.Cavid pr., 115

Dissertasiya ilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir (economics.org.az).

Avtoreferat “02” noyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.10.2026.
Kağızın formatı: A5.
Həcm: 41 275 işarə.
Tiraj: 100